**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**ANAR NADİR oğlu İSMAYILOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ NEFT SƏNAYESİ ÜÇÜN ELMİ VƏ MÜHƏNDİS TEXNİKİ KADRLARIN HAZIRLANMASI TARİXİ

**İxtisas: 5503.02 – Vətən tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **İ.M.MƏMMƏDOV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Q.Ə.ƏLİYEV**
Tarix üzrə fəlsəfə doktoru **C.Ə.BƏHRAMOV**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "___" ______ 2017-ci il tarixli iclasında saat ___-da olacaqdır.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "__" __________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dövlət müstəqilliyinin bərpa olunmasının 20 ili ərzində Azərbaycanın təhsil sistemi mürəkkəb yol keçmiş və özünün bugünkü inkişaf mərhələsinə gəlib çatmışdır. Ötən illər ərzində Respublikamızda təhsilin hüquqi-normativ bazası yaradılmış, onun maddi-texniki, tədris-metodiki təminatı möhkəmləndirilmiş, Respublika Prezidenti tərəfindən təsdiq olunan «Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar» proqramına uyğun olaraq bütünlükdə təhsil sistemində, eləcə də ali təhsildə ciddi islahatlar həyata keçirilməsinə başlanmış, təhsilimizin məzmunu əhəmiyyətli dərəcədə yenilənmiş, keyfiyyətin təmin edilməsi sahəsində irəliyə doğru ciddi addımlar atılmışdır. Lakin bu mərhələyə gəlib çatmaq üçün Azərbaycanın təhsil sistemi, kadrların hazırlanması prosesi bir çox çətin və mürəkkəb tarixi dövrləri əhatə etmişdir.

Məlumdur ki, SSRİ-nin iflası ilə müstəqilliyini bərpa edən Azərbaycanın ənənəvi əlaqələri pozuldu, təhsildə, kadr hazırlığı prosesində müəyyən durğunluq yarandı. 1993-cü ilə qədər məlum səbəblərdən Azərbaycanın bir çox sahələrində olduğu kimi, neft üzrə kadrların hazırlanmasında da müəyyən geriləmə müşahidə olunurdu, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu sahədə də bir çox dəyişikliklər baş verdi. Neft siyasətinin müəyyən olunması, bu sahənin inkişafı, neft üzrə iri layihələrin həyata keçirilməyə başlanması kadr siyasətinin inkişafını da sürətləndirdi. Bu, neft üzrə kadrların hazırlanması tarixində yeni bir mərhələnin başlanğıcı oldu.

«Əsrin müqaviləsi» imzalandıqdan sonra bu sahədə gedən proseslər daha da gücləndi. Neft üzrə sahələr genişləndikcə və şaxələndikcə kadr hazırlığı da inkişaf etməyə başladı. Ümumiyyətlə, Azərbaycanda kadr hazırlığı prosesinə həm daxili, həm də xarici amillər təsir göstərirdi ki, bu da bir çox hallarda müəyyən ziddiyyətlərin yaranması ilə nəticələnirdi. Hüquqi dövlət quruculuğunda kadr hazırlığı proseslərinin hüquqi tənzimlənməsinə xüsusi əhəmiyyət verilir. Mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda kadr siyasətinin rolunun artırılması hazırda Azərbaycanda bazar münasibətlərinin formalaşmasını səciyyələndirən xüsusiyyətlərdən biridir.

Təşkilatın kadr siyasəti ilə heyətin idarə olunması sıx bağlıdır. Burada heyətin idarə edilməsi kadr siyasətinin reallaşdırılması mexanizmi kimi çıxış edir. Təbii olaraq insanın inkişafı, onun peşəkarlığından və şəxsi keyfiyyətlərindən səmərəli istifadə kadr siyasətinin predmetini təşkil edir.

**Tədqiqatın predmeti** Azərbaycanda neft üzrə kadrların hazırlanması tarixinin araşdırılmasıdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın xronoloji çərçivəsi 1991-2011-ci illəri əhatə edir. Problemin bu xronoloji çərçivədə araşdırılmasının bir sıra səbəbləri vardır. Hər şeydən öncə qeyd olunmalıdır ki, məhz bu dövrdə Azərbaycan Respublikası milli müstəqilliyini bərpa etdi və geniş tədbirlər planı ilə beynəlxalq aləmdə tanındı. Respublika Prezidenti Heydər Əliyevin dövründə «Əsrin müqaviləsi»nin imzalanması, ölkənin neft siyasətinin müəyyən olunması Azərbaycanın tarixində yeni bir səhifə açdı və bu proses 2003-cü il tarixindən İ.H.Əliyev tərəfindən ölkə iqtisadiyyatına, xüsusilə neft sahəsinə himayədarlıq siyasəti ilə davam etdirildi.

1991-2011-ci illər ərzində müstəqil Azərbaycan Respublikasında neft üzrə kadrların hazırlanması prosesində bir çox addımlar atılmışdı. Bu prosesin inkişafında dövlətin müəyyən etdiyi siyasət uğurlu nəticələrin qazanılması ilə nəticələnmişdi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 1991-2011-ci illərdə Azərbaycanda neft üzrə kadrların hazırlanması tarixinin öyrənilməsidir. Bu məqsəddən çıxış edərək tədqiqatın qarşısında bir sıra vəzifələr dayanır:

- Azərbaycanın neft sənayesinin inkişaf tarixinin öyrənilməsi;
- neftin strateji əhəmiyyətinin araşdırılması;
- ölkədə həyata keçirilmiş islahatlar dövründə kadr siyasətinin həyata keçirilməsində Heydər Əliyevin prinsipial rolunu işıqlandırmaq;
- neft üzrə kadrların hazırlanması ilə bağlı həyata keçirilən layihələrin təsirinin öyrənilməsi;
- Ali təhsil müəssisələrində neft üzrə kadrların hazırlanması prosesinin öyrənilməsi;
- İstehsalatda neft üzrə kadrların hazırlanması yollarının araşdırılması.
- İlham Əliyevin yeritdiyi siyasi xəttin nəticəsi olaraq neft üzrə kadrların hazırlanması prosesinin inkişaf mərhələlərini müəyyən etmək.

**Problemin tədqiqi səviyyəsi**. Dissertasiya Azərbaycanda neft üzrə kadrların hazırlanması tarixinə həsr olunmuş ilk tədqiqat işidir. Neft üzrə kadrların hazırlanması tarixi (1991-2011-ci illər) problemi vətən tarixində indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Qeyd olunmalıdır ki, tədqiq olunan dövr üzrə Azərbaycan Respublikasında kadr siyasəti məsələlərinin bu və ya digər istiqamətləri iqtisadçı və tarixçi alimlər tərəfindən öyrənilsə də, dissertasiyada qoyulan problem kompleks şəkildə tədqiq edilməmişdir.

Bu sahədə yazılan əsərlərin əksəriyyəti neft tarixinə həsr olunmuşdur. Müəlliflər Azərbaycanda neftin tarixindən danışarkən bu və ya digər məsələ ilə bağlı olaraq kadrlar probleminə də toxunmuşlar.

1954-cü ildə yazılmış «Neft sənayesinin yenilikçiləri» əsərində[1] XX əsrin 40-50-ci illərində Azərbaycanda neft sənayesində çalışan mütəxəssislərin fəaliyyəti haqqında geniş məlumat verilir. Bu əsərdə neft quyularının yüksək sürətlə qazılma üsullarının meydana gəlməsi, neft hasilatının artırılma yolları, qabaqcıl maşınqayıranların yetişdirilməsi, neft tikintilərində yeniliklər və s. bu kimi məsələlər əks olunmuşdur.

XX əsrin 80-ci illərində A.M.Atakişiyev, E.R.İsmayılov, C.Ə.Bəhramov, S.Q.Balayev, və başqalarının kadr hazırlığı ilə bağlı bir sıra məqalələri[2] nəşr olunmuşdur.

Dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə Azərbaycan tarixşünaslığında yeni iqtisadi sistemə keçid dövründə yaranmış ictimai-siyasi ziddiyyətlər şəraitində kadr siyasətinə dair, ümumiyyətlə neft haqqında bir sıra əsərlər meydana gəlməyə başladı.

M.Mirzəyev və C.Mirzəyevin ««Qara qızıl» ağ səadət rəngində» bir neçə kitabdan ibarət əsərlərini[3] neft sahəsində yazılmış ən əhəmiyyətli əsərlərdən biri hesab etmək olar. Bu əsərdə Ümummilli lider Heydər Əliyevin gərgin siyasəti nəticəsində hazırlanan və həyata keçirilən Azərbaycanın neft strategiyasından bəhs olunur. Respublika prezidenti İlham Əliyevin bu istiqamətdə aparılan işlərdə müstəsna rolu qeyd olunur. Kitablarda hər il təşkil olunan «Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası» adlı ənənəvi sərgisi və konfransının materialları dərc edilmişdir. Bu kitablarda neft və qaz sənayesinin inkişafında gərgin əmək sərf edən və xalqımızın səadəti, firavan həyatı yolunda çalışmış neftçilərin fəaliyyətindən və bioqrafik məlumatlardan söhbət açılır.

Bu kitablarda neft sənayesi üzrə kadrların hazırlanmasında fəal iştirak, Heydər Əliyev və İlham Əliyevin kadr hazırlığının müxtəlif məsələlərini əhatə edən çıxışları «Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu

---

[1] Neft sənayesinin yenilikçiləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1954, 55 s.

[2] Атакишиев А.М., Исмаилов Э.Р. Участие вузов Азербайджанской ССР в полготовке специалистов для зарубежных стран, 5-18; Подготовка кадров высшей квалификации в Азербайджанской ССР в условиях рузвитого социализма (сб. научных трудов). Баку,1981, 82 с.; C.Ə.Bəhramov. Xəzər, neft və onların Azərbaycanın siyasi tarixində rolu (Azərbaycan, rus və ingilis dillərində) // Azərbaycan neft sənayesinin tarixinə dair I Beynəlxalq konfrans, Bakı 7 iyun 1996. ABŞ, 1997, s. 68-75, Балаев С.Г. Нефть страны вечного огня. Баку: Азернешр, 1969, с.130.

[3] Mirzəyev M., Mirzəliyev C. «Qara qızıl» ağ səadət rəngində, VI kitab, Bakı: MBM, 2006, 240 s.

dünyaya inteqrasiya yolunda», «Qaz sənayesinin inkişafında elmin rolu», «Azərbaycan Respublikasının neft və qaz sektorunun inkişaf istiqamətləri», «Ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsinin yeni mərhələsi - Azərbaycanın «Böyük neft erası başlandı» və s. bu kimi məqalələr əhatə olunmuşdur.

M.Mirzəyev və C.Mirzəyevin «Neft haqqında nə bilirsiniz?» əsərində də bu sahə ilə bağlı bir sıra mühüm məlumatlar əldə etmək olur. Əsərdə Heydər Əliyev adına Yeni Bakı Neft Emalı Zavodu, «Azərneftyağ» Neft Emalı Zavodu, «Azərbaycan» Qaz Emalı Zavodu kimi müəssisələrin tarixi və fəaliyyəti haqqında məlumatlar verilmişdir.

Neftin tarixi və kadr hazırlığının tarixindən danışarkən, M.Mirbabayevin «Azərbaycan neftinin qısa tarixi» əsərini də xüsusilə qeyt etmək lazımdır. Əsərdə Azərbaycan nefti haqqında ilk tarixi məlumatlardan başlayaraq müasir dövrə qədər xronoloji ardıcıllıqla bütün mərhələlər əhatə olunmuşdur. Burada Nobel və Rotşild qardaşlarının Bakı neft sənayesinin inkişafındakı rolu ilə yanaşı, Azərbaycan mütəxəssislərinin yetişməsi və neft sənayesindəki fəaliyyəti ilə bağlı məsələlər əhatə olunur. Bununla bərabər, əsərdə Azərbaycanın dünya neft sənayesinə verdiyi töhfələr kimi önəmli bölmələr də yer almışdır.

Ç.İsgəndərovun «Kadr auditi konsepsiyasının işlənib hazırlanmasında əsas amillər», «Kadrların idarə edilməsi sistemində kadr auditinin aktual problemləri» adlı məqalələri böyük önəm daşıyır.

T.N.Əliyev və E.A.Dalqılıcovun «Kadrla təminat marketinqinin təşkili və idarə edilməsi: neft emalı və kimya müəssisələrində» adlı əsərləri həm mövzumuz baxımından böyük əhəmiyyətə malikdir, həm də ümumiyyətlə respublikada yeni bir sahə olan marketinq sahəsinin inkişafında önəmli addımlardan biridir.

Qeyd etmək lazımdır ki, tədqiqata cəlb etdiyimiz mövzu vətən tarixşünaslığında ilk dəfə olaraq tarixi faktlar, sənədlər və müstəqil ekspertlərin rəyləri əsasında kompleks şəkildə aparılmışdır.

**Tədqiqatın mənbə bazası.** Tədqiq olunan mövzunun mənbə bazasını Heydər Əliyev və İlham Əliyevin əsərləri təşkil edir. Həmin əsərlərdə planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına keçən Azərbaycan dövlətinin həyata keçirtdiyi siyasi və iqtisadi islahatların mahiyyəti, neft siyasətinin inkişaf etdirilməsi sahəsində Respublika rəhbərliyinin məqsədyönlü fəaliyyəti və bu fəaliyyətin nəticələri, dövlət siyasətinin əsas istiqamətləri, qanunvericilikləri, həmin qanunların yerlərdə icrası və s. məsələlər öz əksini tapmışdır.

Araşdırma prosesində həmçinin dövri mətbuat materiallarından,

müxtəlif statistik məcmuələrindən, illik hesabatlardan müstəqil ekspert rəylərindən mövzu ilə bağlı məsələlərə aydınlıq gətirmək üçün istifadə olunmuşdur. Dissertasiya işinin informasiya bazasını Azərbaycan Respublikasının qanunları, Respublika Prezidentinin imzaladığı fərmanlar, sərəncamlar və digər normativ-hüquqi aktlar, Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, Azərbaycan Dövlət Neft Akademiyasının arxivi, M.F.Axundov adına Mərkəzi kitabxananın, Gəncə Dövlət Universitetinin kitabxanasının materialları təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin metodoloji əsasını tarixi hadisələrlə obyektiv və məntiqi yanaşmanı nəzərdə tutan tarixilik prinsipi təşkil edir. Dissertasiya işinin yerinə yetirilməsində ümumiləşdirmə, statistik təhlil və müqayisə üsullarından istifadə olunmuşdur.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqatın əsas yeniliyi məsələyə fərdi-differensial yanaşmadan istifadə etməklə neft sahəsində mütəxəssislərin hazırlanması tarixinin öyrənilməsidir. Ümumiyyətlə qeyd etmək lazımdır ki, təəssüflər olsun Azərbaycanda bu məsələ heç bir aspektdə tədqiqat mövzusu olmamışdır. Bu baxımdan problemin qoyuluşunun özü tədqiqatın ən böyük yeniliklərindən biridir.

-İlk dəfə olaraq müstəqil Azərbaycanda neft sənayesi üzrə kadr hazırlığı prosesi bu tədqiqatda öyrənilir və kadr hazırlığı baxımından dövrləşmə aparılır;

-tədqiqat işinin əsas elmi yeniliklərindən biri ondan ibarətdir ki, neft üzrə kadrların hazırlanması prosesi həm ali təhsil müəssisələrində, həm də istehsalatda öyrənilmişdir;

-dissertasiyada Azərbaycan dövlətinin milli siyasətində qarşıya qoyulmuş əsas strateji xəttin istiqamətləri və görülən tədbirlərin nəticələri araşdırılmışdır;

-Azərbaycan Respublikasında kadr siyasətinin həyata keçirilmə mərhələləri, istiqamətləri müəyyən olunmuşdur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işində irəli sürülmüş təkliflərdən, əldə olunmuş elmi nəticələrdən Azərbaycanın ümumiləşdirilmiş iqtisadi tarixinin yazılmasında istifadə etmək mümkündür; Azərbaycanın neft tarixinin yazılmasında əhəmiyyətli ola bilər; Respublikanın neft strategiyasına təsir göstərən daxili və xarici amillərin istiqamətlərinin müəyyənləşdirilməsində faydalı ola bilər. Tədqiqat işindən neft-qaz üzrə mütəxəssislərin hazırlanması prosesində, ali tədris müəssisələrində, elmi-tədqiqat işlərində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin məqalələri, tezis, konfrans materiallarında öz əksini tap-

mışdır. Mövzu ilə bağlı dissertantın Azərbaycanda və xaricdə çap olunan elmi jurnallarda məqalə və konfrans materialları çap edilmişdir. Çap olunmuş məqalə və konfrans materialları işin bütün fəsillərini və ümumi məzmununu əhatə edir.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ÜMUMİ MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə bazasının icmalı verilmiş, tədqiqatın elmi yenilikləri və nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"Azərbaycan neft sənayesinin inkişafı və kadr siyasətinin formalaşması tarixi"** adlı birinci fəsli üç paraqrafdan ibarətdir.

Birinci fəslin "Neftin strateji əhəmiyyəti" adlı birinci paraqrafında neftin dünya ölkələrinin iqtisadi-siyasi münasibətlərində oynadığı roldan və Xəzəryanı bölgədə strateji əhəmiyyətindən bəhs edilir.

Siyasi leksikada "Xəzəryanı region" termini SSRİ-nin dağılması nəticəsində və enerji resurslarının mənimsənilməsi problemi ilə bağlı olaraq 1991-ci ildə Xəzər dənizinin sahilində dörd, yeni müstəqil dövlətin yaranmasından sonra meydana çıxdı. Bu regionun əsas iki xüsusiyyəti vardır. Coğrafi və resurs (və ya neft) Xəzəryanı regionu Xəzər dənizinin perimetri üzrə yerləşmiş beş ölkə təşkil edir. Azərbaycan, Rusiya Qazaxıstan, İran və Türkmənstan onları Xəzər dənizi hövzəsi ölkələri adlandırmış qəbul edilmişdir.

"Xəzəryanı region" adı altında Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan başa düşülür. Başqa sözlə, söhbət onun geoloji strukturu ilə bilavasitə əlaqəsi olan vilayətlərdən gedir. Bu səbəbdən tədqiqatçıların bəziləri Xəzərsahili regiona Özbəkistanı da aid edirlər. Qeyd etmək lazımdır ki, SSRİ-də bu sahilyanı vilayətlərlə bağlı anlamı olmayan Xəzəryanı coğrafi termini geniş istifadə olunurdu. Sovet ittifaqı dağıldıqdan sonra Xəzəryanı öz mənasına görə faktiki olaraq - Xəzəryanı region termini ilə birləşdirib.

Xəzəryanı ərazinin geosiyasətinin araşdırılmasının mürəkkəbliyi əsas etibarilə ondadır ki, region vahid geosiyasi məkan deyil. Xəzər dənizi faktiki olaraq onu iki müstəqil alt sistemə bölür - qərb və şərq. Mərkəzi Asiyanın sahilyanı subregionu və dənizə yaxın olan Qafqaz regionu şimalda regionun nisbi bütövlüyünü Rusiyanın kontinental kütləsi və dənizin hər iki

tərəfində Moskvadan çıxan geosiyasi mehvər, cənubda İranın sahilyanı vilayətləri təmin edir. Şimal-cənub mehvəri Xəzər dənizi boyunca onun geosiyasi məkanının kəsilmə xəttidir.[1]

Mərkəzi Asiya və Qafqazın geosiyasi vəziyyəti eyni deyil. Qafqaz bütöv geosiyasi durum deyil. Qərbdə o, Qara, Şərqdə isə Xəzər dənizi ilə məhdudlaşır. Böyük Qafqaz enişləri faktiki olaraq onun ərazisini subregionlara bölür. Xəzər dənizinə yaxınlaşanları xəzərsahili regionun tərkibinə, Qara dənizə yaxınlaşanları isə Qara dəniz regionunun tərkibində daxil etmək qəbul olunmuşdur. Territorial bölünmə - Qaradəniz Xəzər region-terminində öz əksini tapmışdır.[2]

Xəzər neftinin strateji əhəmiyyətini dörd faktor qrupuna bağlamaq olar: Birinci qurpa onun əldə olunması, satışı və daşınmasında gəliri əhatə edən sırf iqtisadi məsələləri aid etmək olar; ikinci qrupa nəzərdə tutulan siyasi dividentlər aiddir. Üçüncü qrup hərbi-strateji üstünlüyü əhatə edir. Dördüncü qrupa geoiqtisadi faktorlar aiddir.[3]

Birinci fəslin ikinci paraqrafı “Azərbaycanın neft sənayesi tarixinin inkişaf mərhələləri” adlanır və burada Azərbaycanın neft sənayesinin formalaşması və inkişafı tarixi araşdırılır.

1994-cü il sentyabrın 20-də “Gülüstan” sarayında Xəzər şelfində neft yataqlarının birgə işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə bir qrup xarici şirkət arasında müqavilə imzalanması münasibətilə təntənəli mərasimdə Ümummilli lider Heydər Əliyev böyük nitqlə çıxış edərək bəyan etmişdi ki, neft Azərbaycan Respublikasıın və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Heydər Əliyev Azərbaycanın neft tarixinə qısa ekskurs edərək onu bir neçə dövrə bölmüşdür.[4]

Bakı nefti haqqında digər məlumatı italyan Josafat Barbaranın qeydlərində tapırıq. O, özü Bakıda olmamış və eşitdiklərini belə qələmə almışdır: Dənizin bir hissəsində Bakı adlı bir şəhər var, dəniz də buna görə Bakı dənizi adlanır. Onun yaxınlığında ucalan dağdan çox üfunətli qara yağ çıxır, bu yağı gecələr çıraqlarda yandırırlar və ildə iki dəfə dəvənin dərisinə

[1] Нурани. Нефтепровод для Каспийской нефти: «Момент истины» для народов Прикаспийского региона и Кавказа, Центральная Азия и Кавказ, №1, 1998, с.66

[2] Мамедов Р. Формирование международно-правового статуса Каспийского моря в постсоветский период, Центральная Азия и Кавказ, 2(14), 2001, с.72

[3] Мамедов Р. Формирование международно-правового статуса Каспийского моря в постсоветский период, Центральная Азия и Кавказ, 2(14), 2001, с.73

[4] Əliyev H. Azərbaycan nefti dünya siyasətində, Bakı, 1997, s.18

sürtürlər. Çünki onu sürtməsələr, dəvələrdə qoturluq olar.

XVI-XVII əsrlərdə Qərbi Avropa ölkələrinin şərqlə, o cümlədən Azərbaycanla ticarət-iqtisadi münasibətlərinin yaradılmasına maraq artırır. Bu səbəbdən də bu dövrdə yaşamış səyyahların Bakı nefti haqqında xəbərlərində daha dəqiq məlumatlar vardır.

1555-ci ildə Londonda yaradılmış "Moskva Şirkəti" özünün ticarət agentlərini Rusiyadan keçməklə Orta Asiya Azərbaycana və İrana göndərirdi. İngilislər Azərbaycana altı səfər etmişlər, lakin ən mühüm səfər Tomas Benisterin və Cefri Dükerin rəhbərliyi ilə şirkət agentlərinin 1568-ci ildən 1574-cü ilə qədər davam edən beşinci səfəri idi. Ceffri Düker Bakı nefti haqqında yazır: Şəhərin yaxınlığında qəribə hal müşahidə olunur. Burada yerin altından heyrət doğuran qədər yağ çıxır. İranın uzaq yerlərindən bura gəlib həmin yağdan aparırlar. Ölkənin hər yerində bu yağ işlədilir. Rəngi qaradır və neft adlanır. Onu 400-500 qatıra və ulağa yükləyib ölkənin hər yerinə daşıyırlar. Belə karvanlara tez-tez rast gələrsiziniz. Göstərilən Bakı şəhərinin yaxınlığında başqa növ yağ da var – ağ rəngli və çox qiymətlidir, güman edilir ki, bizdə petroleum adlanan mayenin eynisidir.[1]

Bakı nefti haqqında adları çəkilən səyyahlar içərisində Almaniya səyyahı Engelbert-Kempferin yazılarında Bakı və Abşeron haqqında verilən məlumatlar öz dolğunluğu baxımından müstəsna əhəmiyyət kəsb edir. E.Kempfer 1683-1693-cü illərdə İsveç səfirliyinin katibi qismində Rusiyada, Azərbaycanda, İranda və Hindistanda olmuş, özünün beş hissədən ibarət əsərini 1693-cü ildə latın dilində nəşr etdirmişdir.[2]

Kempferin məlumatına görə, neft quyularında (görünür, ancaq Suraxanıda) qonşu -kəndlərdən 32 fəhlə işləyirdi. Onlar qan-tər içində işləmələri müqabilində hər ay 7-8 abbası, yəni iki imperial əmək haqqı alırmışlar. Hər gün 80 arabada neft daşıdığı, hər arabayla müxtəlif ölçülü 7 və 8 dəri kisələrdə 10-20 batman neftin yükləndiyi və hər gün 8-10 min batmanadək neft çıxarıldığı göstərilir.

Neft quyularının əsasən şah xəzinəsinə məxsusluğu, neftin satışından əldə olunan gəlirin ora verildiyi bildirilir. Kempferin qeydlərinə əsasən, xəzinə neft quyularından hər il 7 min tümən xalis gəlir əldə edilirdi.[3]

Türk səyyahı Övliya Çələbinin Bakı nefti haqqında qeydləri ma-

---

[1] Mirzəyev M., Mirzəliyev C. Neft haqqında nə bilirsiniz? Bakı, 2005, MBM, s.53

[2] Nazim Rza İsrafiloğlu. Neft. Qlobal münaqişələr mənbəyi, Bakı, Şərq-Qərb, 2009, s.81

[3] Mirzəyev M., Mirzəliyev C. Neft haqqında nə bilirsiniz? Bakı, 2005, MBM, s.54-55

raqlıdır: neft çıxarmaqla məşğul olan insanlar quyulara düşürlər. Gündüz və gecə neft çıxarır və çıxarılan nefti keçi dərisindən tikilmiş tuluqlara tökürdülər. Sonra tacirlər onu alır və müxtəlif ölkələrə daşıyırlar. Neftin səkkiz rəngi olur, ancaq onların arasında ən yaxşısı sarı neftdir. Qara neft şahın mülkiyyəti hesab edilir. Onu Özbəkistan, İran, Kürdüstan, Gürcüstan, Dağıstanla sərhəd olan qalalara göndərir və ondan həmin yerlərdə işıqlandırma məqsədləri üçün istifadə edirdilər. O, şəhərlərin və qalanların müdafiə edilməsi üçün hərbi xəbərdarlıq kimi çox əhəmiyyətlidir.[1]

1847-ci ilə qədər Abşeronda və dünyanın bir çox ölkələrində neft quyuları yalnız bu usulla qazılırdı. Qeyd edək ki, neftə olan tələbat artdıqca neft quyularının daha dərin laylarda və daha tez qazılması tələb olunurdu.[2]

Birinci fəslin üçüncü paraqrafı "Azərbaycanda ilk neft müəssisələrinin yaranması və ilk neftçilər" adlanır və bu hissə, adından da göründüyü kimi, ölkəmizdə ilk neft müəssisələrinin yaranması tarixi və bu prosesdə iştirak edən neftçilərin fəaliyyətinin öyrənilməsinə həsr olunmuşdur. «Azərneftyanacaq» Neft Emalı Zavodunun (keçmiş Yeni Bakı Neftayırma Zavodu) yaranma zərurəti İkinci Dünya müharibəsindən sonrakı dövrlərə, 1940-cı illərin sonuna təsadüf edir. Məhz 1947-ci ildə Bakı şəhərində açıq rəngli neft məhsulları emal edən qurğuların tikilməsi haqda keçmiş SSRİ Neft Sənayesi Nazirliyi qərar vermiş və eyni zamanda beş qurğunun tikintisinə başlanılmışdır. Bir neçə il sonra - 1953-cü ilin yanvar ayında tikilən ilk qurğu istismara buraxılmış və bu qurğudan yanvarın 15-də benzin alınmışdır. İyul ayına qədər daha dörd neft emalı qurğusu istismara buraxılmışdır. İyul ayının 29-da isə tikilib istismara verilmiş həmin qurğuların bazasında SSRİ neft sənayesi nazirinin əmri ilə yeni Bakı Neftayırma Zavodunun yaradılması rəsmiləşdirilmişdir.

Neftin emalı tarixi bilavasitə neftin özünün tarixçəsi ilə sıx bağlıdır. Bu sahədə əmək və qələbələr salnaməsinin ən parlaq səhifələri isə məhz 120 ildən artıq stajı olan «Azərneftyağ» zavodunun kollektivi tərəfindən yazılmışdır. Bu gün «Azərneftyağ» zavodu dirçəliş prosesi keçirməklə yüksələn xətt üzrə inkişaf edir.[3]

Azərbaycanın neft emalı, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, illərlə böyük böhran keçirmişdir. Bu vəziyyətdən çıxmaq istehsalatı modernləşdirmək zərurətinə gətirib çıxarmışdır. Bunun əsası isə hələ 1981-

---

[1] Mirbabayev M. Azərbaycan neftinin qısa tarixi, Bakı, 2008, s.15

[2] Ибрагимов М.Д. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, Элм, 1984, с.38

[3] Mirzəyev M., Mirzəliyev C. Neft haqqında nə bilirsiniz? Bakı, 2005, MBM, s.93-94

ci ildə neftin ilkin emalı üzrə ildə 6 milyon ton məhsul verən ELOU-AVT qurğusunun inşası və istismara verilməsi ilə bağlıdır. 1994-1996-cı illərdə isə «Petrofak» (ABŞ) və «Lani injiniring» (Cənubi Koreya) şirkətləri tərəfindən ildə hərəsi 2 milyon ton neft emal edən ELOU-AVT tipli daha iki qurğu tikildi. Məhz bunun sayəsində müəssisənin ilkin neft emalı artımı 14,5-15 milyon tona çatdı. Zavoda ən müasir neft bitumu istehsal edən Bituroks bitum qurğusu istifadəyə verildi.[1]

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının akad. Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu hələ Sovet dövründə ən iri elmi-tədqiqat mərkəzlərindən biri hesab olunurdu. İnstitutun yaradılması 1929-cu ilə aiddir. O zaman institut Azərbaycan neftinin sortlaşdırılması, yağların istehsalı üzrə bazanın genişləndirilməsi və başqa sahələr üzrə tədqiqatlar aparan «Azneft»in mərkəzi kimya laboratoriyası bazası əsasında Azərbaycan Neft Tədqiqat İnstitutu yaradıldı. Bu institut neft tədqiqatları, neft-kimya üçün xammal, yanacaq, yağ əldə olunması üzrə aparıcı elmi müəssisəyə, habelə respublikamız üçün elmi kadrların hazırlanması mərkəzinə çevrildi.

Neft tədqiqatlarının inkişafı sahəsində və həmçinin Azərbaycan üçün milli kadrların hazırlanmasında böyük rol oynamış alimlər sırasına bunları aid etmək olar: L.G.Qurviç, N.O.Zelinskiy, S.S.Nametkin, M.A.Kapelyuşnikov, İ.F.Çutt, V.F.Qerr, K.P.Lixuşin, M.A.Plotko, N.İ.Çernojukov, L.A.Quxman, K.V.Kostrin və başqaları.[2]

30-40-cı illərdən başlayaraq Azərbaycan Y.H.Məmmədəliyev, M.F.Nağıyev, V.S.Əliyev, A.M.Quliyev, R.Q.İsmayılov, S.O.Mehdiyev, J.M.Orucova və başqaları kimi məşhur Azərbaycan alimlərinin elmi fəaliyyətinin çiçəklənməsi başlanır.

Bu alimlərin fundamental tədqiqatları sayəsində ilk dəfə olaraq ölkədə neft, neft-kimyası, habelə elm və sənayenin inkişafına böyük töhfə vermiş kimyaçı-texnologiyaları məktəbi formalaşdı.

Azərbaycanda neftlə bağlı təhsil və istehsal müəssisələrinin yaradılmasından əvvəl ömürlərini neft işinə, onun müxtəlif sahələrinə həsr etmiş bir sıra şəxsiyyətlər formalaşmışdır. Məhz bu şəxsiyyətlərin fəaliyyəti nəticəsində Azərbaycanda neft işi inkişaf etmişdir.

Dissertasiyanın **“1991-2003-cü illərdə Azərbaycanda neft üzrə kadr strategiyasının hazırlanması və həyata keçirilməsi”** adlanan ikinci

---

[1] Neft qəzeti, № 61 (1280) 14 noyabr 2010-cu il, s. 3

[2] Национальная Академия Наук Азербайджана Институт Нефтехимических процессов имени академика Ю.Г.Мамедалиева, 80, s.1-2

fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafı "Azərbaycanda neft geosiyasi strateji amil kimi" adlanır və bu hissədə neftin Azərbaycanın tarixində strateji rolu və əhəmiyyəti araşdırılır.

XX əsrdə regionun nefti iki dəfə dünya qüdrətlərinin geostrateji çəkişmələrinin predmetinə çevrilmişdir. Bir çoxları neft əldə etməyə can atırdılar, lakin çətin düşünmək olardı ki, neft siyasi məqsədlərin reallaşması üçün son zərurət predmetinə çevriləcək, ondan da ötəsi Üçlük İttifaqının Birinci Dünya Müharibəsində uğursuzluğunun səbəblərindən biri olacaqdı.

Türkiyə Mesopotamiya üzərində nəzarəti itirdikdən sonra koalisiya yanacaq ehtiyatına ehtiyac duymağa başladı. Kim inana bilərdi ki, 1917-ci ildə Almaniya Batumi neft terminalı da daxil olmaqla Gürcüstan üzərində protektoratını elan etdiyindən Ənvər Paşanın ordusu Bakı kommunasından imtina edəcək.

Neft maraqları ilə bağlı qərb siyasi strategiyanın arxitektoru şübhəsiz, Hayd Corc idi. O, yalnız neftin gəlirlərinin artmasında əhəmiyyətini deyil, həm də onun strateji önəmliyini çox gözəl anlayırdı. Belə yanaşma postimperiya dövrü Rusiyada Vətəndaş müharibəsi dövründə yer almışdı (1918-1922).[1]

1918-ci ilin 16 avqust tarixində Britaniya generalı Dan Starvilin rəhbərliyi altında ingilis və ağ qvardiya ordusu Bakıya gəldilər və bolşevik dəstələri ilə qısa müddətli döyüşlərdən sonra yerli mədənlər üzərində nəzarəti ələ keçirtdilər. Həmin ilin payızında Britanıya dəmiryol nəzarət komitəsi Bakı-Batumi neft kəmərinin istismarına başladı. London qəzeti Faynanşal Tayms (Financial Times, 24 december 1981) açıq şəkildə Britaniya imperiyasının başçılığı altında Antanta hərbi-siaysi blokunun məqsədləri haqqında yazırdı: "Britaniya hökuməti üçün Qroznı və Bakıda bilavasitə öz nəzarəti altında çatdırma imkanı yaranmışdı."[2]

Lakin artıq 1920-1921-ci illərdə situasiya əsaslı şəkildə dəyişdi. Qızıl orda neft rayonlarına yaxınlaşdı və Azərbaycan, Ermənistan və Gürcüstanı işğal etdi. Sovet hökuməti quruldu. Sovet Rusiyası neft qüdrəti statusunu möhkəmləndirdi.

Qafqazın geostrateji sentizminin ikinci mərhələsi II Dünya Müharibəsi dövrünə təsadüf edir. Onun xüsusilə önəmli hadisələrindən biri 1942-ci ildə Qafqaz uğrunda döyüş oldu. Cənub ordu qruplaşmasının yüksək rütbəli zabitlərinin görüşündə (1942-ci ilin iyun ayı) Hitler bildirdi ki,

---

[1] Гогелиани Т. Фактор энергетических ресурсов Кавказа в преддверии XXI века, 74-79, Центральная Азия и Кавказ, 3 (9), 2000, Щвеция, с. 74

[2] Qoqeliani T. Göst. əsəri, s. 74

Qroznıy və Maykopun nefti müharibənin sonrakı gedişi üçün böyük əhəmiyyətə malikdir. Buna görə də Bakı, Maykop və Qroznının neft rayonlarının alınması hücum edən faşist ordusunun əsas vəzifəsinə çevrildi.

XX əsrin neft dilemması və onun geosiyasi sikl səviyyəsinə qədər inkişafı 20-30-cü illərdən başlayır ki, bu da Latın və Şimali Amerikada Yaxın Şərqdə və SSRİ-də böyük neft ehtiyatlarının olması ilə bağlı idi.[1]

Növbəti mərhələ Sovet İttifaqı dağıldıqdan sonra başladı və MDB ölkələrində qeyri-sabit geosiyasi situasiya ilə üst-üstə düşdü. Enerji resursları belə qeyri-sabitliyin cilovlanmasının ən mühüm alətlərindən birinə çevrildi. MDB ölkələrindən bəzilərinin neft, son dövrlərdə isə qaz biznesində aktivliyi artdı, onların arasında Türkmənistan, Rusiya, Azərbaycan, Qazaxıstan və Özbəkistanın adını çəkmək olar. Postsovet dövrünün gəlişi ilə Qafqaz resursları uğrunda geostrateji qarşıdurmanın üçüncü mərhələsi başlanır.

İkinci fəslin "Azərbaycanda neft üzrə kadr siyasətinin formalaşmasına zəmin yaradan amillər" adlı ikinci paraqrafı Azərbaycanda neft üzrə kadr siyasətinin formalaşmasına zəmin yaradan amillər araşdırılır.

Əsrlər boyu Xəzər problemi kəskin xarakter almışdır. Müstəqil xəzəryanı dövlətlər birtərəfli qaydada öz hüquqları haqqında bəyanat verir və onun milli hissələrinə öz iddialarını bildirdilər.

1992-ci ildə dənizin statusu və istifadə rejimi ilə bağlı hərtərəfli həlli yolları axtarmaqla başlandı ki, bu da praktikada gəmiçilik, balıqçılıq, bioresurslar, ekologiya, iqtsadiyyatı mühafizə və istifadə, xüsusilə enerji daşıyıcılarının nəhəng resurslarının əldə olunması sferasında qarşılıqlı qəbul edilmiş razılaşmanın qəbul edilməsi demək idi.

Hövzə ölkələrində formalaşan beynəlxalq əlaqələr və Xəzər problemləri xüsusilə onun beynəlxalq hüquqi statusunun müəyyən olunması üzrə danışıqları şərti olaraq üç mərhələyə bölmək olar.

Birinci mərhələni (1991-1994-cü illər) kəşfiyyat, tanışlıq və problemin qarşılıqlı qəbul olunan həlli variantını axtarma dövrü adlandırmaq olar. İkinci mərhələ 1995-1999-cu illərə düşür. Bu zaman ərzində baxışlar və mövqelər formalaşdı, çoxtərəfli görüşlər və konfranslar keçirildi. Üçüncü mərhələ 2000-ci ilin yanvar ayında siyasi arenaya Rusiya dövlətinin yeni rəhbəri V.Putinin çıxdığı andan başlanır. Onun gəlişi xüsusilə Xəzəryanı region və Xəzər problemləri ilə bağlı Rusiya Federasiyasının yeni konsepsiyasının meydana gəlməsi ilə əlamətdardır.

---

[1] Лисичкин С.М. Нефтяная промышленность США. М., Изд-во Недра, 1969, с.131-132

Xəzəryanı dövlətlərin əməkdaşlıq təşkilatı haqqında İranın müqavilə proyekti müzakirəyə çıxarıldı. Əməkdaşlıq təşkilatı üzrə konvensiya proyektində aşağıdakı məqsəd müəyyən olunmuşdu: dənizin resurslarının istismarı zamanı iştirakçı ölkələrin iqtisadi və siyasi maraqlarının yaxınlaşması. Birinci mərhələdə Xəzər dənizi, onun resursları haqqında maksimal dərəcədə informasiya toplamaq və həmçinin əməkdaşlıq və sabitlik əsasında region ölkələrinin inkişaf imkanlarını üzə çıxarmaq nəzərdə tutulurdu. Bu proyektin müəlliflərinin fikrincə, dənizlə bağlı olan fəaliyyət koordinasiyası Xəzəryanı dövlətlərin sosial və iqtisadi inkişafına zəmin yaradacaq. Konfransın nəticələrinə görə bircə kommunike qəbul edildi. Bu kommunikedə dənizin təbii resurslarının qorunması, habelə bütün tərəflərin maraqlarının nəzərə alınması ilə dəniz yollarının müəyyən olunması, ekoloji tələblərin yerinə yetirilməsi, xüsusilə Xəzərin səviyyəsinin qalxma prosesinə nəzarət daxil olmaqla birgə fəaliyyət sferasının müəyyən olunması haqqında tərəflər razılığa gəldilər. Bundan əlavə, bütün Xəzəryanı dövlətlər xüsusilə hüquqi status, ətraf mühitin mühafizəsi, bioloji resursların işlənilməsi, istifadəsi və qorunması, gəmiçilik, elmi araşdırmalar, dəniz səviyyəsinin dəyişməsi səbəblərinin öyrənilməsi və nəzarəti üzrə altı ixtisaslı komitənin yaradılmasına razılıq bildirdilər.[1]

Belə konfrans 1993-cü ilin 23-26 avqustunda İranın Rəşt şəhərində baş tutdu. İlk dəfə olaraq onun işlənilməsində alim-ekspertlər iştirak etdilər (Ekoloqlar, bioloqlar, ixtioloqlar, hüquqşünaslar və başqaları). Müzakirəyə və razılaşmaya konvensiyanın Rusiya proyekti təqdim edildi. Belə şərh etmək olar ki, sahilyanı ölkələrin mövqe və maraqlarının ilk açıq-aydın toqquşması məhz Rəşt konfransının çərçivəsində baş verdi.[2]

İkinci mərhələdə cərəyan edən 1995-1999-cu illər hadisələri göstərir ki, Xəzər dənizinin yeni hüquqi statusunun formalaşması haqqında məsələ yalnız sahil dövlətləri üçün deyil, dünyanın digər ölkələri üçün də önəm daşımağa başladı.

Bu mərhələ sahilyanı dövlətlərin çoxsaylı rəsmi görüşləri, elmi praktiki konfransları, prioritet və mövqelərinin dəyişməsi, danışıqlar zamanı açıq-aydın siyasi toqquşmaları ilə xarakterizə olunur.[3]

Beynəlxalq əlaqələrdə dünyanın vəziyyəti əbədi deyil, yalnız XX

---

[1] Нурша Аскар, Прикаспийский регион: стратегическое значение пространства и нефти. Центральная Азия и Кавказ, 71-78, 2(14), 2001, с.71-72

[2] Нурани, Нефтепровод для Каспийской нефти: «Момент истины» для народов Прикаспийского региона и Кавказа, 65-69, Центральная Азия и Кавказ, 1, 1998, с.66

[3] Мусабеков Р. Независимый Азербайджан: нефть и политика, 48-52, Центральная Азия и Кавказ, 1, 1998, с.49

əsrdə regionun xalqları ikinci dünya müharibəsində iştirak etmişlər. Hələ birinci dünya müharibəsində Xəzər neftinə Antanta və Almaniya maraq göstərirdi. Rusiya imperiyasının dağılmasından istifadə edərək regiona ingilislər, sonra isə türklər daxil oldular. Bolşeviklər Bakı nefti üzərində nəzarəti bərpa etməyə çalışırdılar. İkinci dünya müharibəsi dövründə yanacağın kəskin çatışmazlığını yaşayan alman ordusu 1942-ci ilin iyununda şərq cəbhəsinin cənub qanadına hücuma keçdilər. "Blau əməliyyatı" şifrəli ad altında yay-payız kampaniyasının məqsədini Hitler Stalinqrad və Bakı nefti müəyyən etmişdi. Neft mədənlərini müdafiə etmək üçün Sovet İttifaqı Xəzər hövzəsində hərbi vəziyyət elan etdi.[1]

Neft və qazın müasir iqtisadiyyat və hərbi strategiyada rolunu nəzərə alaraq Xəzəryanı region bir sıra aparıcı sənaye ölkəsi tərəfindən strateji maraqlar zonası adlandırılmışdır. Aparıcı dövlətlərin rəqabəti onların onun neft resurslarına çıxışı əldə etmək və ölkənin uzunmüddətli strateji maraqlarını təmin etmək cəhdi ilə şərtlənir. Neft isə daxil olma aləti, öz iştirakının əsaslandırma və neftini artırmaq üçün resursdur. Əgər diplomatik mübarizənin qeyri-regional iştirakçıları üçün neft geopolitikası regiona açar rolunu oynayırsa, xəzəryanı dövlətlər tərəfindən o daha çox aparıcı geoiqtisadi mərkəzlərlə qarşılıqlı əməkdaşlıq və əlaqələrin qurulması üçün bir vasitə kimi istifadə olunur.

Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin başçılığı ilə «Əsrin müqaviləsi»nin həyata keçirilməsi üçün və ölkəyə xarici sərmayələr cəlb etməkdən ötrü ən vacib şərt olan siyasi sabitlik yaradıldıqdan sonra xarici şirkətlərlə bağlanılan müqavilələrin sayı artmağa başladı.

1995-ci il noyabrın 10-da Xəzərin Azərbaycan sektorunda yeni aşkar olunmuş «Qarabağ» strukturunda və ona bitişik ərazilərdə kəşfiyyat aparılması yataqların işlənməsi və çıxarılan neftin pay bölgüsü haqqında ARDNŞ ilə 4 xarici neft şirkəti arasında 25 illik müddətə müqavilə imzalandı.

Müqavilə 1996-cı il fevralın 23-də Respublika parlamenti tərəfindən təsdiq edildi. Layihə üzrə investisiya qoyuluşu 1,7 milyard dollar təşkil edirdi. «Qarabağ» yatağının birgə işlənməsi planını həyata keçirmək üçün Xəzər Beynəlxalq Neft Şirkəti yaradıldı və perspektivliyi «Qarabağ» strukturunda işə başlanıldı.

«Azərbaycanda investisiya imkanları» mövzusunda 1995-ci ilin noyabrın 29-da Londonda keçirilmiş konfransda çıxış edərkən Azərbaycan Respub-

---

[1] Нурани, Нефтепровод для Каспийской нефти: «Момент истины» для народов Прикаспийского региона и Кавказа, 65-69, Центральная Азия и Кавказ, 1, 1998, с. 74

likasının prezidenti Heydər Əliyev demişdi ki, bütün əsrlər boyu Azərbaycanın energetika potensialı Rusiya iqtisadiyyatına, son 70 ildə isə SSRİ iqtisadiyyatının inkişafına xidmət etmişdir. Bu gün həmin potensial dünyanın yeni iqtisadi sıçrayışı üçün mühüm təkanverici amil ola bilər. Bu isə Azərbaycanın beynəlxalq birliyə tam qoşulacağından xəbər verirdi.[1]

Gənc Xəzəryanı dövlətlər irihəcmli layihələrin passiv müşahidəçiləri deyil. Neft və qaz boru xəttlərinin ehtimal olunan marşurutları faktiki olaraq regiondan geosiyasi impulsların istiqaməti ilə üst-üstə düşür. Boru xəttlərinin marşurutları ilə Azərbaycan, Qazaxıstan, Türkmənistanın xarici siyasət prioritetləri və ehtimal olunan siyasi oriyentasiyasını əlaqələndirmək lazımdır. Məsələn, Azərbaycan və gürcü rəhbərliyinin Bakı-Ceyhan və Bakı-Supsa marşurutlarına tərəf olması qərbin regionda iştirak hesabına Kremlin nüfuzunun zəiflətmək cəhdi ilə izah olunur. Qazaxıstanın neft ixracı marşurutlarının çox variantlılığı haqqında elan etməsi respublikanın aparıcı ölkələrin maraqlarını nəzərə almaq və regionda güclərin balansını qorumaq cəhdini əks etdirir.[2]

«Əsrin müqaviləsi»ndən sonra təkcə Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz, Orta Asiya, Avropa dövlətləri və ümumən bəşəriyyət üçün əhəmiyyətinə görə ən mühüm sənədlərdən biri - Türkiyə Cümhuriyyətinin 75 illiyi münasibəti ilə keçirilən təntənəli yubiley mərasimində iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin 29 oktyabrında Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən, Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəmərinin tikintisini nəzərdə tutan və Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan dövlət başçıları, eləcə də ABŞ dövləti adından Energetika Naziri Bill Riçartsın tərəfindən imzalanmış «Ankara Bəyannaməsi» oldu. İmzalanma mərasimindən sonra kütləvi informasiya vasitələri nümayəndələrinə məlumat verən Türkiyə prezidenti Süleyman Dəmirəl bildirmişdir ki, tarixi sənəd olan bu Bəyannamə Bakı-Tiflis-Ceyhan magistral boru xəttini çəkmək əzmimizi bütün dünyaya bəyan edirdi.[3]

Bu fəslin üçüncü paraqrafı "Azərbaycanda neft-kimya sahəsinin inkişafı və neft sənayesi ilə əlaqələri" adlanır və bu hissə Azərbaycanda

---

[1] Həsənov R. «Əsrin müqaviləsi» və ondan sonrakı müqavilələr üzrə neftin nəqli problemi, 203-215, Tarix və onun problemləri, 1, Bakı-2007, s.203

[2] Нурша Аскар, Прикаспийский регион: стратегическое значение пространства и нефти. Центральная Азия и Кавказ, 71-78, 2(14), 2001, c.80

[3] Həsənov R. «Əsrin müqaviləsi» və ondan sonrakı müqavilələr üzrə neftin nəqli problemi, 203-215, Tarix və onun problemləri, 1, Bakı-2007, s.208

neft-kimya sahəsinin inkişafı tarixi və neft sənayesi ilə əlaqələrinin araşdırılmasına həsr olunmuşdur.

1965-ci ildə Moskvanın VNİİ Qaz institutunun nəzdində Azərbaycan filialı təşkil edilmişdi. 1974-cü ildə həmin filialın əsasında təbii qazın nəqli hazırlanması və emalı üzrə Ümumittifaq Elmi-Tədqiqat və Layihə Qaz İnstitutu yaradılmışdır. 1980-ci ildə Respublika Baş Qaz İdarəsi nəzdində layihə-smeta şöbəsi yaradılmışdır və 1981-ci ildə layihə-smeta kontoruna çevrilmişdir. 1989-cu ildə isə "Azyanacaqlayihə" institutu təşkil edilmiş və 1992-ci ildə isə "Azəriqaz layihə" texnologiya institutu adlandırılmışdır.

1997-ci ildə göstərilən iki institutun bazasında ixtisaslaşdırılmış Azərbaycan Elmi-Tədqiqat və Layihə Qaz İnstitutu yaradılmışdır. Yeni yaradılmış Az ETLQİ-yə texniki elmlər namizədi Eldar Əliyev başçılıq etməyə başlamışdır. Qaz sənayesinin inkişafı ilə əlaqədar olaraq Az ETLQİ Qazın nəqli, paylanması, yeraltı saxlanması, emalı üzrə ixtisaslaşmış və aktual-elmi-texniki məsələlərin həlli ilə məşğul olmuşdur. İnstitut tərəfindən işlədilmiş layihələr ətraf mühitin qorunması və təhlükısiszliyi nöqteyi-nəzərindən dünya standartlarına uyğundur. Az ETLQİ-nin alimləri qazın toplanması, nəqlə hazırlanması, nəqli və emal edilməsinin müxtəlif problemləri ilkə məşğuldur.[1]

Perspektivdə Azərbaycanın qaz sənayesinin iqtisadi səmərəliliyinə yönəldilmiş elmi-tədqiqat təcrübə-konstruktor və layihə işləri üzrə tərtib olunmuş proqramların əsas istiqamətləri aşağıdakılardır: qaz sənayesi obyektlərinin, avadanlıqlarının, korroziyadan mühafizəsi. Buraya qaz kəmərlərinin korroziyadan qorunması üçün yüksək keyfiyyətli örtüklərin istehsalı, texnologiyasının işlənməsi və sənaye miqyasında tətbiqi, şorluq şəraitində və karbon qazı mühitində boru kəmərlərinin və avadanıqlarının korroziyadan mühafizəsi üçün əməli-tədbirlərin işlənib hazırlanması. İnstitutun təcrübə-sınaq zavodunda rekonstruksiya olunmuş qurğuda örtük hazırlanmış və qaz kəmərlərində korroziyanın qarşısını almaq üçün istifadə edilir.[2]

Heydər Əliyev adına Bakı Neft emalı zavodu 1950-ci illərdən fəaliyyətə başlamışdır. Ancaq həqiqət ondadır ki, onun inkişaf, irəliləmə, çiçəklənmə dövrü 1970-1980-ci illərə təsadüf edir. Bunun da obyektiv səbəbləri vardır. Məhz o illərdə Azərbaycana Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edirdi və ölkəmizin həyatının bütün sahələrində, bütün istiqamətlərində canlanma, irəliləyiş, tərəqqi və uğurlar var idi, o cümlədən neft və

---

[1] Mirzəyev M., Mirzəliyev C. «Qara qızıl» ağ səadət rəngində, V kitab, Bakı, MBM, 2004, s.59-60

[2] Mirzəyev M., Mirzəliyev C. Göst. ədəri, s.60-61

neftayırma sahəsində məhz o illərdə bu zavodun gələcəyi üçün bu günü üçün mühüm qurğular istismara verildi. ELOU-AVT, katalitik riferminq, katalitik kreking, kokslaşdırma qurğuları işə salınmışdır. İlham Əliyev bu barədə bildirmişdir: Əgər bu qurğular istifadəyə verilməsəydi, bu gün Azərbaycanın iqtisadiyyatı belə uğurla inkişaf edə bilməzdi. Bu qurğuların uğurla fəaliyyət göstərməsi ölkəmizin iqtisadiyyatı üçün çox mühüm bir amildir. Biz bu qurğular vasitəsilə emal olunmuş neft məhsullarını dünya bazarına çıxarmaqla öz iqtisadi potensialımızı gücləndirmişik. Çox sevindirici haldır ki, bu zavod indi də bütün müasir tələblərə, dünya standartlarına cavab verir.[1]

Zavodun ikinci həyatı 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra başlanmışdır. Burada gedən abadlıq və quruculuq, bərpa və təmir işləri 1970-1980-ci illərdə yaradılmış qurğulara yeni həyat vermişdir. Bu qurğular təmir olunmuşdur və indi çox yüksək standartlara cavab verir.

Dissertasiyanın üçüncü fəsli **"2003-2011-ci illərdə Azərbaycanda neft üzrə kadrların hazırlanması"** adlanır və bu fəsil üç paraqrafdan ibarətdir. Üçüncü fəslin "Neft emalı müəssisələrində kadrlardan istifadənin təşkili" adlanan birinci paraqrafında kadrların düzgün seçilməsi və kadr strategiyasının həyata keçirilməsi və s. kimi məsələlər araşdırılır.

Mütəxəssislər belə bir fikrə gəlirlər ki, müəssisələrin idarəetmə sisteminə kadr strategiyasının tətbiq edilməsi zərurəti qaçılmazdır. Odur ki, kadr konsepsiyasını həmin dövrdəki təsərrüfatçılıq fəaliyyətini bazar şəraitinə uyğunlaşdırmaq - yeganə çıxış yolu kimi qərara alındı. Bunun nəticəsində isə kadr strategiyası sahibkarlıq strukturları fəaliyyətinin idarə edilməsi sisteminin əsas tərkib hissəsinə çevrildi. O, işin düzgün qurulması, məhsulların keyfiyyətinin artırılması, istehsal prosesinini sürətlənməsi, onların reallaşdırılması üçün münasib şəraitin formalaşmasına yaxşı zəmin yaratdı.[2]

Kadr strategiyası istehsal prosesində və ya onun başa çatması ilə başlanmır, əksinə, istehsalın xarakterini və miqyasını məhz bu strategiya diktə edir. İstehsal gücündən səmərəli istifadə, yeni yüksək, məhsuldar avtomatik avadanlıqlar və mütərəqqi texnologiya strategiyanın işləməsi vasitəsilə həyata keçirilir.

Strategiyasının hazırlanması mərhələlərinə aşağıdakılar aid edilir:

a) bazarın tutumluğu;

---

[1] Mirzəyev M., Mirzəliyev C. Göst. ədəri, s.30

[2] Алексеев В.А., Практикум по маркетингу, СПб, 2001, с.41-42

b) müəssisənin məqsədinin formalaşdırılması;

c) marketinq planının tərtib olunması;

e) marketinq üzrə təşkilati-iqtisadi və sosial tədbirlərin həyata keçirilməsi;

f) marketinq fəaliyyətinə nəzarət.[1]

Kadr siyasəti kadrlarla yeni iş sisteminin formalaşması və onların tərbiyə edilməsi, seçilməsi ümumdövlət işinin mühüm vəzifəsi hesab edilməli və dövlətin sosial-iqtisadi siyasətində başlıca yer tutmalıdır.[2]

Müəssisədə kadr siyasətinin tərkib hissələrindən biri də onların yerləşdirilməsidir. Bu çox mürəkkəb sosial-psixoloji amillərə əsaslanır. Ona görə də kadrların yerləşdirilməsi zamanı onların peşə və ixtisas hazırlığının səviyyəsini, iş stajını, işgüzarlığını, şəxsi keyfiyyətini nəzərə alaraq struktur bölmələrin və vəzifələrin xüsusiyyətlərinə uyğunlaşdırmaq lazımdır. Kadrların seçilib yerləşdirilməsi prosesində mütərəqqi metodlardan istifadə etmək məqsədəuyğundur. Hazırda həmin metodlar içərisində ən çox yayılmış «test metodu»dur. Xarici ölkələrin iş təcrübəsi əsasında geniş istifadə edilən bu metod çoxsaylı namizədlər içərisində ən layiqlidir və qabiliyyətlərini seçməyə imkan verir. Ona görə hesab edirik ki. məcburiyyət qarşısında qalaraq neft emalı müəssisəsini tərk edən işçilərin yerinə kadr seçimini məhz qeyd edilən metod üzrə həyata keçirmək lazımdır.[3]

Kadr siyasətinin seçilməsində əsaslandırıcı amil rolunu müəssisənin inkişaf strategiyası oynayır. Müəssisənin inkişaf strategiyası müəssisənin istehsal, maliyyə-iqtisadi və sosial fəaliyyət sferaları ilə birbaşa asılılıqda olduğundan məhz müəssisənin inkişaf strategiyasına istinadən müəssisəyə hansı kadrların tələb olunduğunu, onların yığılması üçün maliyyə imkanlarını, işçilərin maraqlarını müəyyən edirlər.

Üçüncü fəslin ikinci paraqrafı "Neft üzrə kadrların ali təhsil müəssisələrində hazırlanması" adlanır və burada neft üzrə peşəkar kadrların ali məktəblər səviyyəsində təhsilinin təşkil edilməsi məslələri araşdırılır.

«2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın tələblərinə uyğun olaraq ali təhsilimizin Avropa təhsil məkanına inteqrasiyası prosesi geniş vüsət almışdır. Həyata keçirilən islahatlar gedişində ali təhsilimizin məzmunu yeniləşir, təlim texnologiyaları müasirləşir, səmərəli idarəçilik metodlarına yol açılır.

---

[1] Əliyev T.N., Dalqılıcov E.A. Kadrla təminat marketinqinin təşkili və idarə edilməsi: neft emalı və kimya müəssisələrində. Bakı, Elm, 2006, s.22

[2] Yenə orada, s.32-33

[3] Данко Т.П. Управление маркетингом, М., 2001, с.121-122

Təhsilimizin Avropaya inteqrasiya məcrasına düşməsi, heç şübhəsiz, onun zamanla ayaqlaşmasına, Avropa təhsil məkanının üstünlüklərindən istifadə edə bilməsinə, qarşıya çıxan problemlərin həllində kollektiv təcrübədən faydalanmasına geniş imkanlar yaradacaqdır.

Azərbaycanın yüksək mədəni, intellektual potensialı, sosial-iqtisadi tərəqqisi milli təhsilimizin və elmimizin nailiyyətləri ilə bağlıdır. Bütün tarixi dövrlərdə maarifə, elmə, təhsilə böyük maraq göstərən xalqımız bəşəriyyətə çox böyük alim və mütəfəkkirlər, ağlının ziyası ilə təbiət və cəmiyyət həyatının müxtəlif sahələrini işıqlandıran dahi şəxsiyyətlər bəxş etmişdir. Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə milli təhsil sisteminin Avropa standartları səviyyəsində formalaşmasına və inkişafına misilsiz töhfələr vermiş, gənclərimizin təfəkkürünün və müasir düşüncə tərzinin genişlənməsinə böyük diqqət və qayğı göstərmişdir.

Ulu öndər milli təhsil sisteminin zəngin tarixi ənənələr əsasında müasirləşdirilməsi, yeniləşdirilməsi, yüksək texnologiyalar dövrünün tələblərinə uyğunlaşdırılması ilə bağlı niyyət və arzuları bu gün uğurla icra edilir. Dövlətçilik siyasətinin ləyaqətli davamçısı möhtərəm prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə təhsil sahəsində dövlət siyasətinin strateji istiqamətləri müəyyənləşdirilmiş modernləşmə, informasiya texnologiyalarının tətbiqi insan kapitalının formalaşdırılması proqramı ön plana keçirilmişdir. Bu dövlət proqramının reallaşdırılması məqsədi ilə prezident İlham Əliyevin təşəbbüsü ilə dövlət büdcəsində elm və təhsil xərcləri ildən-ilə artırılır. Dövlət büdcəsindən təhsilə ayrılan vəsait 2003-cü illə müqayisədə 6 dəfə artaraq 2008-ci ildə 1,1 milyard manat, 2009-2010-cu illərdə 1,3 milyard manat təşkil etmişdir.

Dövlət başçısı İlham Əliyevin 30 may 2005-ci il tarixli «Azərbaycan Respublikasının Prezidenti yanında təhsil üzrə xüsusi komissiyanın yaradılması haqqında», 4 sentyabr 2007-ci il tarixli «Ən yaxşı ümumtəhsil məktəbi və Ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında», 10 aprel 2008-ci il tarixli «Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında», 4 may 2009-cu il tarixli «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının təsdiq edilməsi haqqında», 22 may 2009-cu il tarixli «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında», 21 oktyabr 2009-cu il tarixli «Azərbaycan Respublikası Prezidenti yanında Elmi İnkişafı Fondunun yaradılması haqqında» sərəncamları da bu sahədə qarşıda duran konseptual

vəzifələrə yönəlmişdir.[1]

Gənclərin xaricdə təhsil almağa göndərilməsi ilə bağlı hələ 70-ci illərdə mövcud olmuş mütərəqqi ənənənin bərpası dövlət idarəçiliyi üçün müasir təfəkkürlü, bilikli və yüksək ixtisaslı kadrlar hazırlamaq məqsədi daşıyır. Dövlət başçısının 31 yanvar 2008-ci il tarixli «Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında», habelə 16 aprel 2007-ci il tarixli «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında, 5 sentyabr 2007-ci il tarixli «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın 2007-2008-ci illərdə maliyyələşdirilməsi haqqında» sərəncamları da məhz bu məqsədə xidmət etmişdir.[2]

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2009-cu il oktyabrın 21-də imzaladığı sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması da tədqiqatların stimullaşdırılmasının yeni maliyyə mexanizmi kimi diqqəti cəlb edir. Azərbaycan Prezidentinin «AMEA-nın gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında» 2010-cu il 9 fevral tarixli sərəncamı respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını sürətləndirmək məqsədi daşıyır. Sərəncamla Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan AMEA-ya gənc alimlərin Avropanın elmi mərkəzlərinin doktoranturasında təhsil almaları üçün 500 min manat məbləğində vəsait ayrılmışdır. Bu sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində elmi tədqiqatların Avropa səviyyəsinə çatdırılmasını, gənc alimlərin dünya elminə inteqrasiyasını nəzərdə tutur.

Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı ilə ölkəmizin energetika sənayesinin ikinci inkişaf mərhələsi başladı. Qısa müddətdə Yenikənd Su Elektrik Stansiyası, (gücü 112,5 MVT) Şimal İstilik Elektrik Stansiyasında buxar-qaz bloku (gücü 400 MVT), Bayramzadə adına Bakı 1 saylı İstilik Elektrik Mərkəzi (gücü 110 MVT), Sumqayıtda kimya sənayesi üçün Elektrik Stansiyası (gücü 32 MVT) fəaliyyətə başladı və respublika enerji sisteminin gücü 5700 MVT-ə çatdırıldı ki, bu da qonşu Gürcüstan və Ermənistan respublikalarında istehsal edilən enerjinin ümumi həcmini ötüb keçdi.

---

[1] Neft qəzeti, № 61 (1280) 14 noyabr 2010-cu il, s.2

[2] Neft qəzeti, № 02 (1276) fevral 2010-cu il, 3

Üçüncü fəslin "İstehsal müəssisələrində neft üzrə kadrların hazırlanması" adlı paraqrafında müxtəlif istehsal müəssisələrində neft üzrə kadrların hazırlanması məsələləri öyrənilir. Kadrların hazırlanması, məlum olduğu kimi, mürəkkəb, çoxşaxəli və uzun bir prosesdir. Kadr hazırlığının ilkin mərhələsi ali təhsil müəssisələrində başlanırsa, sonrakı mərhələlər istehsal müəssisələrində davam etdirilir. Lakin bu heç də o demək deyildir ki, kadr ali təhsil müəssisəsini bitirdikdən sonra təhsildən tamamilə ayrılır, əksinə təcrübə göstərir ki, məhz istehsal prosesi kadrların yenidən təhsilə müraciət etmələrinə səbəb olur. Avropa dövlətlərində tələbələr təhsil dövrünün lap ilkin mərhələlərindən istehsalata müraciət edir və təcrübə əsasında nəzəri biliklər əldə etməyə başlayır və sonda effektli nəticələr əldə edilmiş olur. Bu, fərdi deyil, sistemli xarakter daşıyır. Sevindirici haldır ki, Azərbaycanda da bu proses həyata keçirilir və neft işi üzrə təhsil alan tələbələrin əksəriyyəti neft şirkətləri ilə əlaqə saxlayır və bəzi hallarda isə müqavilələr əsasında əməkdaşlıq edirlər.

Dissertasiyanın **Nəticə** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:


1. Azərbaycanın neft sənayesi tarixinin inkişaf mərhələləri // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2014, № 2, s.251-255.
2. İstehsal müəssisələrində neft üzrə kadrların hazırlanması // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2014, № 3, s.204-210.
3. Xəzəryanı region üçün neftin əhəmiyyəti // Tarix və onun problemləri. Bakı, 2014, № 3, s.191-197.
4. Neft üzrə kadrların ali təhsil müəssisələrində hazırlanması // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2014, № 4, s.129-135.
5. Возникновение первых нефтяных предприятий и передовые нефтяники в Азербайджане. Международное научно-периодическое издание. Межкультурные коммуникации. Тбилиси, 2015, с.61-67.
6. Azərbaycanda neft üzrə kadr siyasətinin istiqamətlərini müəyyən edən amillər // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2015, № 2, s.232-239.

7. XXI əsrin əvvəllərində Azərbaycan Respublikasında Neft üzrə kadrların ali təhsil müəssisələrində hazırlanması / Gəncə Dövlət Universiteti. Gənc alimlərin I beynəlxalq elmi konfransının materialları. I hissə, 17-18 oktyabr. Gəncə, 2016, s.117-119.
8. Внешние связи в сфере подготовки нефтяных кадров в высших Учебных заведениях Азербайджанской Республики в начале XXI века // Національний педагогічний університет імені М.П.Драгоманова ВГО Українська академія наук Гілея Науковий вісник збірник наукових праць. Історичні науки. Філософські науки. Політичні науки. Київ, 2017, Випуск 120 (№ 5), s.105-108.

**Исмаилов А.Н.**

**История подготовки научных и инженерно-технических кадров для нефтяной промышленности Азербайджанской Республики**


**РЕЗЮМЕ**

Во **введении** говорится об актуальности темы, степени изученности, объекте исследования, целях и обязанностях, источниковедческой базе, научной новизне, хронологической последовательности и научно-практической ценности.

В **первой главе** диссертации **«Развитие нефтяной промышленности Азербайджана и история формирования кадровой политики»** исследуются роль и стратегическая ценность нефти в Прикаспийском регионе и экономическо-политических отношениях стран мира, формирование и история развития нефтяной промышленности Азербайджана, история возникновения первых нефтяных учреждений в нашей стране и деятельность нефтяников, участвующих в этом процессе.

Во **второй главе** диссертации **«Подготовка и претворение в жизнь кадровой стратегии по нефти в Азербайджане в 1990-2003 гг.»** анализируются шаги, предпринятые в подготовке кадровой стратегии, важная стратегическая роль и ценность нефти в истории Азербайджана.

**Третья глава** диссертации называется **«Подготовка нефтяных кадров Азербайджана в 2003-2011 гг.»** Здесь исследуются вопросы правильного избрания кадров и имплементации кадровой стратегии, организация образования нефтяных кадров на уровне высшего образования.

**В заключении** подводятся итоги исследования, обобщаются и анализируются результаты.

**A.N. Ismayilov**

## History of the training of scientific and engineering personnel for the oil industry of the Republic of Azerbaijan

### SUMMARY

The introduction of the dissertation refers to the relevance of the topic, the degree of study, the object of research, goals and responsibilities, the source study base, scientific newness, chronological sequence and scientific and practical value.

The first chapter of the thesis "Development of the Oil Industry of Azerbaijan and the History of Personnel Policy Formation" explores the role and strategic value of oil in the Caspian region and the economic and political relations of the countries of the world, the formation and history of the development of the oil industry in Azerbaijan, the history of the first oil enterprices in our country and the activities of oil workers involved in this process.

In the second chapter of the thesis "Preparing and Implementing the Personnel Strategy for Oil Industry in Azerbaijan in 1990-2003", the steps taken in preparing the personnel strategy, the important strategic role and value of oil in the history of Azerbaijan are analyzed.

The third chapter of the thesis is entitled "Training of oil personnel in Azerbaijan in 2003-2011." Here, the issues of the correct election of personnel and the implementation of the personnel strategy, the organization of education of oil personnel at the level of higher education are explored.

In the conclusion drew the certain conclusions on the given theme.

Kağız formatı 60x84, 1/16
Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**АНАР НАДИР оглы ИСМАИЛОВ**

# ИСТОРИЯ ПОДГОТОВКИ НАУЧНЫХ И ИНЖЕНЕРНО-ТЕХНИЧЕСКИХ КАДРОВ ДЛЯ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5503.02 – Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ – 2017**